# ABŞ Konqresinin nümayəndə heyəti ilə görüş

İyunun 3-də Milli Məclisin Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupu ilə ölkəmizdə səfərdə olan ABŞ Konqresinin nümayəndə heyəti arasında görüş keçirilib.



Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri və Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Səməd Seyidov qonaqları salamlayaraq Azərbaycanla Birləşmiş Ştatlar arasındakı əlaqələrdən söz açıb. O, Azərbaycanın təşəbbüskarı olduğu beynəlxalq layihələrin reallaşmasında ABŞ-ın və onun Konqresinin dəstəyini məmnunluqla qeyd edib. Səməd Seyidov 44 günlük Vətən müharibəsindən sonra bölgəmizdə yaranmış yeni reallıqlar və regional əməkdaşlıq imkanları, Azərbaycanın bölgədə sülhün bərqərar olması və regional əməkdaşlığın inkişafı üçün göstərdiyi təşəbbüslər barədə məlumat verib.

Görüşdə iştirak edən Milli Məclisin Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Sevinc Fətəliyeva, Nigar Arpadarai, Erkin Qədirli və Asim Mollazadə regionda gedən proseslər haqqında fikirlərini bölüşərək Azərbaycanın beynəlxalq hüquqa əsaslanaraq öz ərazi bütövlüyünü təmin etdiyini diqqətə çatdırıblar. Deputatlar işğaldan azad edilmiş ərazilərdə Azərbaycan tərəfindən aparılan yenidənqurma işləri barədə məlumat veriblər, bölgədə dayanıqlı sülhün və təhlükəsizliyin təmin edilməsinin vacibliyini vurğulayıblar.

ABŞ Konqresi nümayəndə heyətinin üzvləri Dişa Banik, Vill Smeters, Uilyam Kristian, Troy Duql, Sara Temic, Ata Xan, Ketrin Nikol Klos səmimi qəbul üçün təşəkkür ediblər. Onların regionda gedən proseslərlə bağlı verdikləri suallara deputatlar ətraflı cavablar veriblər.

Görüşdə Azərbaycanın beynəlxalq hüquqa, demokratiyaya və bəşəri dəyərlərə sadiq olduğu, bölgədə sülhün bərqərar olunması və regional əməkdaşlığın inkişafı üçün çalışdığı qonaqların diqqətinə çatdırılıb.

***"Azərbaycan"***

Azərbaycan.- 2022.-4 iyun.- S.4.